# MİLLİ İQTİSADİYYATIN FORMALAŞMASI VƏ DAVAMLI İNKİŞAFININ NƏZƏRİ TƏDQİQİ

**i.e.d., professor, Telman İ. İmanov**
*Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi*
*İqtisadi Elmi Tədqiqat İnstitutu*
*"İstehsal sahələri" şöbəsinin rəhbəri*
*telman.imanov@esri.gov.az*

**Xülasə.** Beynəlxalq aləmdə qlobal iqtisadi tendensiyalar dərinləşdikcə milli iqtisadiyyatın formalaşması və davamlı inkişafın makroiqtisadi problemlərinin tədqiqi ilə bağlı məsələlər aktuallıq kəsb edir. Transformasiya dəyişiklikləri ilə əlaqədar qloballaşan dünya sistemində siyasi-iqtisadi müstəqillik qazanmış Azərbaycan Respublikasında milli iqtisadiyyatın formalaşması məqsədi ilə ölkəmizdə həyata keçirilən iqtisadi islahatlar, bunun üçün seçilən və tətbiq edilən modellərin nəzəri cəhətdən əsaslandırılması mühüm əhəmiyyətə malikdir. Belə bir şəraitdə sağlam milli iqtisadiyyatın formalaşması və dayanıqlı inkişaf qanuna-uyğunluqlarının, xüsusiyyətlərinin araşdırılması iqtisad elminin tədqiq etdiyi problem məsələlər sırasına daxildir.

***Açar sözlər***: bazar münasibətləri sistemi, milli iqtisadiyyat, milli maraq və mənafelər, milli inkişaf modelləri, sağlam milli iqtisadiyyatın təşəkkül tapmasının mühüm şərtləri.

## ФОРМИРОВАНИЕ НАЦИОНАЛЬНОЙ ЭКОНОМИКИ И ТЕОРЕТИЧЕСКОЕ ИССЛЕДОВАНИЕ ЕЁ УСТОЙЧИВОГО РАЗВИТИЯ

**д.э.н., профессор Телман И. Иманов**
*Министерство Экономики Азербайджанской Республики*
*Научно-исследовательский Институт Экономики*
*Заведующий отделом «Производственные отрасли»,*
***telman.imanov@esri.gov.az***

**Резюме.** По мере углубления глобальных экономических тенденций на международной арене приобретают актуальность вопросы, связанные с формированием национальной экономики и изучением макроэкономических проблем устойчивого развития. Экономические реформы, осуществляемые в нашей стране с целью формирования национальной экономики в Азербайджанской Республике, которую обрела в результате трансформационных преобразований политическую и экономическую независимость в глобализированной мировой системе,

В таких условиях формирование здоровой национальной экономики, исследование закономерностей и особенностей устойчивого развития входят в число проблем, изучаемых экономикой.

**Ключевые слова:** *система рыночных отношений, национальная экономика, национальные интересы и приоритеты, модели национального развития, важные условия формирования здоровой национальной экономики.*

# THEORETICAL STUDY OF THE FORMATION AND SUSTAINABLE DEVELOPMENT OF THE NATIONAL ECONOMY

**Doctor of economic sciences, professor, Telman I. Imanov**

*Ministry of Economy of the Republic of Azerbaijan*

*The Economic Scientific Research Institute*

*Head of "Production Sectors" Department*

telman.imanov@esri.gov.az

**Abstract.** As global economic trends deepen in the international arena, the issues related to the formation of national economies and the study of macroeconomic problems of sustainable development become increasingly important. In the context of transformation changes, the theoretical justification of economic reforms implemented in the Republic of Azerbaijan, which has gained political and economic independence within the globalized world system, and the models chosen and applied for the purpose of forming the national economy, is of significant importance. In such a context, the study of the regularities and characteristics of the formation of a healthy national economy and sustainable development is among the key issues researched in the field of economics.

**Keywords**: *market relations system, national economy, national interests and benefits, national development models, essential conditions for the formation of a healthy national economy.*

XIX əsr Alman iqtisadi nəzəriyyəsində (Volkswirtschaft) istifadə edilən *"milli iqtisadiyyat"* anlayışı, "*iqtisadi sistem"* anlayışı ilə sıx bağlıdır. Lakin o, mövcud iqtisadi sistemi daha konkretləşdirir, ölkənin coğrafi mövqeyi, onun beynəlxalq əmək bölgüsündə iştirakı, mədəni və tarixi ənənələri ilə şərtləşən spesifik cəhətlərini əks etdirir.

Məlumdır ki, iqtisadi ədəbiyyatlarda milli iqtisadi sistem və ya milli iqtisadiyyat əksər hallarda cəmiyyətin iqtisadi sistemi və iqtisadiyyatın milli modeli kimi nəzərdən keçirilir.

Milli iqtisadiyyat anlayışı müəyyən zaman kəsiyində iqtisadi sistem daxili iqtisadi münasibətləri, müxtəlif təsərrüfat formaları, iqtisadi sahələr arasında qarşılıqlı əlaqələri özündə ehtiva etdirir.

Milli iqtisadiyyat və yaxud milli iqtisadi sistem - bu və ya digər ölkənin iqtisadi sistemi olmaqla bütün amillər (daxili, xarici, iqtisadi, qeyri-iqtisadi) kompleksini əhatə edir və onların inkişafı, fəaliyyəti və s. şərtlənən ümumi iqtisadi qanunauyğunluqları özündə əks etdirir (9). Məlumdur ki, milli iqtisadiyyat hər hansı bir təsərrüfat forması və ya bununla bağlı kateqoriya deyil, milli xüsusiyyətlər baxımından cəmiyyətin, iqtisadiyyatın müxtəlif inkişaf mərhələlərini, strukturunu və səviyyəsini özündə əks etdirir. Bu baxımdan A.P.Qradov haqlı olaraq qeyd edir ki, "*Milli iqtisadiyyat dedikdə, söhbət heç də tək bir millətə mənsub olan iqtisadiyyatdan getmir. Bu bütöv cəmiyyət, ümumdövlət səviyyəsində fəaliyyət göstərən və həmin cəmiyyətdə yaşayan bütün xalqa məxsus və onun mənafeyini ifadə edən iqtisadiyyatdır" (10).*

Fikrimizcə, milli iqtisadiyyat - tarixən müəyyən sivil mədəni məkanda dövlət və əbii-çoğrafi sərhədlər daxilində, müəyyən siyasi və hüquqi koordinatlar çərçivəsində formalaşan və inkişaf edən, konkret təsərrüfat ənənələrinə və etik mədəniyyətə, iqtisadi davranış nümunələrinə malik milli təsərrüfat sistemidir.
Deməli:

- milli iqtisadiyyat ölkənin, dövlət qurumunun iqtisadiyyatı, həmçinin bir sıra xarakteristikaları özündə ehtiva edən ümumi anlayışdır;
- milli iqtisadiyyat müəyyən dövlətin və ya ölkənin əmək bölgüsü vasitəsi ilə bir-birinə bağlı olan tarixən formalaşmış sənaye kompleksidir;
- milli iqtisadi sistem milli iqtisadiyyatın tam sistemli olmasını, habelə onun nəzəri simasını (elmi kateqoriyalar sistemini) ifadə edir;
- milli iqtisadi sistem milli iqtisadiyyatın sosial-iqtisadi təbiətinin mahiyyətcə əksidir.

Tarixi təcrübə göstərir ki, iqtisadi sistemlərin dəyişməsi nəticəsində meydana gələn milli iqtisadiyyatlar nəticə etibarı ilə cəmiyyətlə - iqtisadiyyatın qarşılıqlı əlaqəsi və inkişafı nəticəsində təşəkkül tapır. Marksist təlimin mühüm prinsipinə görə yeni yaranan iqtisadi sistem o halda mövcud olur, inkişaf edir ki, yeni yaranan istehsal münasibətləri məhsuldar qüvvələrin inkişaf xarakterinə uyğun gəlsin. Əks təqdirdə, belə bir hal baş vermədikdə, yeni yaranan cəmiyyət mütləq mənada müəyyən dövrdən - müddətdən sonra iflasa məruz qalacaqdır. Lakin nəzərə almaq lazımdır ki, yeni yaranan istehsal münasibətlərinin formalaşmasında ümumbəşəri qanunauyğunluqlar nə qədər əhəmiyyətli hesab olunsalar da, onlar obyektiv milli reallıqları nəzərə almasalar, milli iqtisadiyyatın formalaşmasına təsir göstərə bilməzlər.

İqtisadi ədəbiyyatlarda milli iqtisadiyyat təliminin ilkin tədqiqatçıları kapitalizm cəmiyyətinin nümayəndələri, klassik iqtisadi nəzəriyyə məktəbinin yaradıcıları A.Smit və D.Rikardo olmuşlar. Onlar hesab edirdilər ki, milli iqtisadiyyatın formalaşması cəmiyyətin iqtisadi inkişafının qanunauyğun nəticəsidir. Hər bir ölkə iqtisadi inkişafının müəyyən mərhələsində müstəqil milli iqtisadiyyat formalaşdırmaq səviyyəsinə gəlib çıxacaqdır. Ölkələr iqtisadi inkişaf səviyyələrinə görə bir-birindən fərqləndikləri üçün milli iqtisadiyyatın formalaşmasına bir qrup ölkələr tez, digər qrup ölkələr isə gec gəlib çıxırlar. Milli iqtisadiyyat ölkənin istehsal sahələri arasında iqtisadi əlaqələrin çevikliyini, təkrarlığını, milli maraqların ödənilməsini tələb etdiyindən onun formalaşması da bu münasibətlərin kifayət dərəcədə yetkinləşdiyi kapitalizm cəmiyyətində baş verir. Kapitalist istehsal münasibətləri müxtəlif iqtisadi alətləri hərəkətə gətirməklə (kapitalın sərbəst şəkildə bir sahədən digərinə axması, milli resurslardan səmərəli istifadənin bazar mexanizmi, əmək bölgüsünün dərinləşməsi) iqtisadiyyatın bir tam kimi inkişaf etməsini stimullaşdırır. İqtisadiyyatın bütün sahələri istehsal amillərinin səfərbər edilməsi nəticəsində gəlir gətirmək imkanına malik olduğundan heç bir sahə kapitalın diqqətindən kənarda qalmır. A.Smit, D.Rikardo öz dövrlərinin inkişaf etmiş ölkəsi olan İngiltərənin iqtisadiyyatını tədqiq edərək bu qənaətə gəlmişlər ki, bazar iqtisadi münasibətlərinin sistemli inkişafı İngiltərənin iqtisadi həyatında bir tamlıq yaratmışdır ki, bu da milli iqtisadiyyat üçün səciyyəvidir.

Artıq XVII-XVIII əsrlərdə İngiltərədə kapitalist münasibətləri kifayət dərəcədə inkişaf etmişdi. İnkişaf etmiş ölkənin iqtisadiyyatı onu təşkil edən struktur ünsürlərinin qarşılıqlı əlaqə və təsiri şəklində fəaliyyət göstərirdi. Həm də bu fəaliyyət xarici aləmdən təcrid olunmuş şəkildə deyil, onunla sıx əlaqədə baş verirdi. Bu baxımdan, milli iqtisadiyyat dedikdə daxili və xarici iqtisadi amillərin təsiri altında qarşılıqlı əlaqə və asılılıqda olan və fəaliyyət göstərən təsərrüfat ünsürlərinin ölkə miqyasında mövcud xüsusi kompleksi başa düşülür. Milli iqtisadiyyat daha çox mənafelərin uzlaşdırılması yolu ilə ümummilli, ümumxalq, ümumdövlət mənafelərinin reallaşmasına şərait yaradır və bu amillərin inkişafına xidmət edir.

Milli iqtisadiyyatın ümummilli mənafelərin reallaşmasına daha əlverişli şərait yaratmaq imkanına malik olması alman iqtisadçısı F.Listin də iqtisadi tədqiqatlarında diqqət mərkəzində olmuşdur. F.List öz tədqiqatlarının nəticəsi olaraq bu qənaətə gəlmişdir ki, müstəqil milli iqtisadiyyatı formalaşdıran amillərin çevik qarşılıqlı asılılıqda əlaqəsini təmin etməklə bütövlükdə ölkə iqtisadiyyatının kifayət

dərəcədə sürətli inkişafına nail olmaq mümkündür. Sonralar F.Listin milli iqtisadiyyat konsepsiyası Almaniya iqtisadiyyatının inkişafının proqram sənədlərindən birinə çevrilmişdi. Almaniya gerçəkliyində *"milli iqtisadi inkişaf"* konsepsiyasının diqqət mərkəzində saxlanılmasının nəticəsi olaraq XX əsrin əvvəllərindən başlayaraq Almaniya dünyanın ən qabaqcıl ölkələrindənbirinə çevrilmişdir. İqtisadi inkişaf səviyyəsinə görə alman iqtisadiyyatına uyğun gələn bir sıra qərb ölkələri öz milli inkişaf konsepsiyalarının işlənib hazırlanmasında F.Listin nəzəriyyəsindən ölkələrinin gerçəkliyinə uyğun gələn səviyyədə istifadə etməyə başladılar. Məsələn, Avstriya və İsveçdə sosial yönümlü iqtisadiyyatın formalaşmasının əsasını məhz alman modeli təşkil etmişdi.

Bir çox hallarda "milli iqtisadiyyat" məfhumuna dar mənada yanaşılır. Bu yanaşma aşağıdakı cəhətlərə görə düzgün hesab olunmur. İlk növbədə, milli iqtisdadiyyat təcridi deyil, daxili bütövlülüyə, özünəməxsus inkişaf məntiqinə və spesifik mənafelər sisteminə əsaslanır. Ikincisi, milli iqtisadiyyat canlı orqanizm kimi müstəqil təsərrüfat fəaliyyəti həyata keçirməklə istehsalın səmərəliliyinin yüksəldilməsi naminə geniş xarici əlaqələr baxımından açıq olmalıdır.

Beləliklə, hər bir ölkənin milli iqtisadiyyatı bir-biri ilə qarşılıqlı asılılıqda olan, müstəsna dərəcədə mürəkkəb ümumiqtisadi, ümumdünya, regional və ölkə səviyyəsində baş verən iqtisadi proseslərin nəticəsi kimi təzahür edir, qiymətləndirilir.

Deməli, milli iqtisadiyyatın sadalanan bu xarakterik cəhətləri ilə bərabər qeyd etmək lazımdır ki, o, özünün daxili inkişaf qanunauyğunluqlarına malik, institusional quruluşu, milli dəyərləri, mentaliteti, əhalisinin iqtisadi təfəkkürü ilə fərqlənən, tarixi varisliyi özündə əks etdirən daha mürəkkəb bir sosial-iqtisadi təsərrüfat orqanizmidir.

Sistem dəyişikliklərinin baş verdiyi yeni əsr, üçüncü minillikdə milli iqtisadiyyatın formalaşması iqtisadi siyasətin, daxili və xarici amillərin, habelə siyasi qüvvələrin fəaliyyətinin ümumi sosial-iqtisadi nəticəsi kimi formalaşır. Adətən, bu tip xüsusiyyətlər real olaraq öz əksini ölkədə həyata keçirilən iqtisadi islahatların xarakterində, sürətində, istiqamətində və miqyasında tapır.

Dünya iqtisadiyyatının tərkib hissəsi olan, ölkələrin milli istehsal təsərrüfat imkanları ilə seçilən milli iqtisadiyyatın formalaşması inkişafın istiqamətini müəyyən etməyə imkan verən vektordur. Deməli, hər bir ölkənin milli iqtisadiyyatı mürəkkəb bir təsərrüfat, sosial, təşkilati, elmi-texnoloji sistem kimi nəzərdən keçirilə bilər.

Milli iqtisadiyatın əsasını cəmiyyət üzvlərinin tələbatını ödəmək məqsədi ilə məhsul istehsal edən və xidmət göstərən, müəyyən ictimai əmək bölgüsü funksiyasını yerinə yetirən, qarşılıqlı iqtisadi əlaqədə baxımından vahid sistemi təşkil edən müəssisələr, firmalar, təşkilatlar və ev təsrrüfatlarından ibarətdir.

Milli Elmlər Akademiyasının müxbir üzvü T.S.Vəliyev göstərirdi ki, milli iqtisadiyyat insanlarda iqtisadi mənafeləri reallaşdırmağa sahiblik hissi oyadır, iqtisadi inkişafda yönəldici, təkanverici stimul yaradır, sosial-iqtisadi həyatda hərəkətverici qüvvəyə çevrilir (4).

İqtisadi ədəbiyyatlarda milli iqtisadiyyat "sağlam (sivilzasiyalı) milli iqtisadiyyat", "müstəmləkə xarakterli milli iqtisadiyyat" və "yarımmüstəmləkə xarakterli milli iqtisadiyyatlar" formasında təsnifləşdirilir.

Milli iqtisadiyyatın son iki forması təmannalı asılılıq və iqtisadi struktur dərəcəsinə görə fərqləndirilir. Bu tip iqtisadiyyata malik ölkələr, adətən, iqtisadi cəhətdən başqa dövlətlər tərəfindən istila edilir, qeyri-müstəqil olmaları ilə seçilir və onların iqtisadiyyatı asılı iqtisadiyyat kimi səciyyələnir. Məsələn, keçmiş SSRİ-nin tərkibində Azərbaycan Respublikası konstitusiyon baxımdan müstəqil dövlət kimi təsbit olunsa da siyasi, hüquqi və iqtisadi müstəqilliyi tam təmin olunmamışdı. Daha doğrusu, ölkənin real siyasi, hüquqi, milli, iqtisadi və s. maraqları İttifaq çərçivəsində bu və ya digər formada nəzərə alınmırdı. Bu kimi problemlər öz real həllini məhz Azərbaycan Respublikası müstəqillik aktını və yeni Konstitusiyanı qəbul etdikdən sonra tapa bildi.

Tarixi kateqoriya kimi milli iqtisadiyyatların inkişaf etdirilməsi bir çox imperativlərdən asılıdır. Iqtisadi inkişaf nəzəriyyələrinə baxdıqda qapalı iqtisadi model, qloballaşmanı təşviq edən açıq bazar modeli olmaqla bir çox iqtisadi inkişaf perspektivlərini görmək mümkündür. Halbuki, müasir dövrdə milli iqtisadiyyatın inkişafı cari vəziyyətdə müvafiq geoiqtisadi reallıqların çərçivəsində formalaşır.

XX əsrin sonlarında müstəqillik əldə edərək müstəqil dövlətə çevrilmiş, siyasi-iqtisadi inkişaf yoluna qədəm qoymuş Azərbaycan Respublikasının qarşısında duran ən başlıca problemlərdən biri milli maraqlar və mənafelər baxımından bazar münasibətləri sisteminin prinsiplərinə uyğun milli iqtisadiyyatın formalaşması və inkişafı ilə bağlı makroiqtisadi problemləri qısa zaman kəsiyində həll etməkdən ibarətdir. Bu baxımdan spesifik milli inkişaf modelləri ilə dünyada mövcud ümumbəşəri iqtisadi inkişaf meylləri arasında optimal tarazlığın əldə edilməsi aktual problemə çevrilir.

İqtisadçılar hər bir ölkənin sosial-iqtisadi böhranlardan qurtulması və inkişafa nail olması üçün konkret olaraq aşağıdakı yolları qeyd edirlər:

- dünya iqtisadi birliyinə inteqrasiya şəraitində ölkənin öz maddi sərvətlərinə, real imkanlarına, potensial iqtisadi resurslarına arxalanaraq milli iqtisadiyyatını formalaşdırmaq;
- tərəfdaş münasibətləri əsasında xarici dövlətlərin maliyyə-iqtisadi, elmi-texniki, siyasi-hərbi himayəsindən - yardımından yararlanmaq;
- ölkə özünün mövcud daxili potensialına arxalanmaqla yeni dünya ölkələri ilə beynəlxalq əməkdaşlıq prinsiplərinə uyğun iki və çoxtərəfli qaydada investisiya, elmi- texniki, texnoloji imkanlarından faydalanmaq yolu ilə milli iqtisadiyyatı bazar münasibətləri əsasında qurmaq.

Təbii ki, milli iqtisadiyyatın formalaşmasının qeyd edilən bu modellərinin nəzəri prinsiplərindən tam, qarışıq, habelə ayrı-ayrı müddəalardan istifadə edərək ölkənin perspektiv inkişafını hədəfləyən optimal modelin seçilməsi sosial-iqtisadi istiqamətdə araşdırmaların aparılmasını labüd edir.

Azərbaycan Respublikasında sağlam milli iqtisadiyyatın formalaşmasının qanunauyğun-luqları, xüsusiyyətləri və problemlərinin nəzəri aspektdə tədqiq edilməsi üçün iqtisadi proseslərə tarixi kontekstdə, məntiqi ardıcıllıqla yanaşma tələb olunur.

BMT-nin məlumatına görə Azərbaycan Respublikası dünya ərazisinin 0.06%-ni, dünya əhalisinin 0,13%-ni təşkil etdiyi halda, onun payına dünya milli məhsulunun 0.03%-i, dünya xarici ticarət dövriyyəsinin isə 0.01%-i düşür.

Nəzərə almaq lazımdır ki, Azərbaycanın keçdiyi zəngin inkişaf yolunda qazandığıparlaq nailiyyətləri, ölkəmizin həyatında müstəsna əhəmiyyət daşıyan ictimai-siyasi hadisələri tədqiq etmədən, yeni iqtisadi sistemin mövcud olduğu bir şəraitdə milli iqtisadiyyatın formalaşması ilə bağlı problemlərin real qiymətini vermək qeyri-mümkündür. Təhlil nə qədər dolğun və hərtərəfli aparılarsa, alınan nəticələrin praktik əhəmiyyəti bir o qədər yüksək olar.

Hər bir milli iqtisadiyyat əldəetmənin xarakter və üsulları iqtisadi sistemin tipindən və mövcud milli iqtisadiyyatın spesifik xüsusiyyətlərindən asılı olan aşağıdakı əsas məqsədlərə nail olunmasına səy göstərir:

- həcmcə milli məhsul istehsalının stabil yüksək artım tempini, yəni, kəskin dəyişikliklər, tərəddüdlər və böhransız istehsalın dayanqlı artan həcminin təminedilməsi;
- qiymətlərin sabitləşməsi, başqa sözlə, qiymətləri dondurmadan qiymət artımı yumşaq formada tənzimləmək (aşağı qiymət tələbi stimullaşdırır, istehsal sahələrinin inkişafınamaneə yaratmır, yüksək qiymət isə əksinə);
- əhalinin tədiyyə qabiliyyətini təmin edən məşğulluq səviyyəsinin yüksəldilməsi və uyğun olaraq istehsalın inkişaf etdirilməsi;
- xarici ticarətdə balanslılığın qorunub saxlanılması. Başqa sözlə, idxal və ixrac arasında nisbi tarazlığa, milli valyutanın digər ölkələrin valyutasına mübadilə zamanı kursunun sabitliyinə nail olunması və s.

Yuxarıda qeyd edilənləri ümumiləşdirərək belə nəticəyə gəlmək olar ki, sağlam milli iqtisadiyyatın təşəkkül tapmasının mühüm şərtləri aşağıdakılardan ibarətdir:

1. *Ölkə daxilində milli dövlət, siyasi hakimiyyətin tam azad və müstəqil fəaliyyətgöstərməsi*. Siyasi cəhətdən azad olmayan dövlət müstəqil milli iqtisadiyyatınqurulması üçün zəruri olan bütün komponentləri hərəkətə gətirmək imkanlarından məhrum olduğundan ümumbəşəri keyfiyyət xüsusiyyətlərinə malik bazar iqtisadi sistemini sərbəst formalaşdırmaq və iqtisadiyyatın demokratikləşdirilməsi prosesini sürətləndirmək gücünə malik ola bilməz.

Siyasi müstəqillik sivilzasiyalı, müstəqil milli iqtisadiyyatın formalaşdırılması və inkişafının yeganə olmasa da əsas şərti hesab olunur.

Xüsusi institut kimi milli dövlətin ən mühüm funksiyasıından biri bazar münasibətləri sisteminin tələblərinə uyğun əlverişli mühiti formalaşdırmaq məqsədi bazar iştirakçıları arasında qarşılıqlı sosial-iqtisadi münasibətlər sistemini nizama salan "oyun qaydalarını" müəyyənləşdirmək, cəmiyyət miqyasında qeyri-müəyyənlik və risk səviyyəsini aşağı salınmasını təmin etmək, transaksion xərcləri azaltmaq və s. ibarətdir.

Dövlətin kəsərli, aktiv bazar institutuna çevrilməsi, hər şeydən əvvəl, dövlət strukturlarına hərtərəfli nəzarət və təsir vasitələrinin işlənib hazırlanması və reallaşdırılmasını, cəmiyyətin bütün üzvlərinin və iqtisadi agentlərin maraqlarının ifadəçisi kimi dövlətin funksiyasının məhdudlaşmaması məqsədi ilə tədbirlərin həyata keçirilməsini nəzərdə tutur. Bunun üçün isə bazar subyektləri tərəfindən dövlətə müəyyən səlahiyyətlərin verilməsi praktikasından aktiv istifadə etmək lazımdır. Bu zaman çalışmaq lazımdır ki, dövlət bu səlahiyyətləri məhz bazar subyektlərinin özlərinin ictimai maraqlarla eyniyyət təşkil edən xüsusi mənafeləri naminə dövlət orqanlarına verdiyi hədd çərçivəsində ala bilsin.

2. *Dövlət milli iqtisadi, siyasi reallıqları, maraq və mənafeləri, təbii-tarixi prosesləri nəzərə alaraq milli iqtisadi inkişaf modelinin işlənib hazırlanması və onu reallaşdırmaqgücünə malik olması*. Azərbaycanın bazar inkişaf modelinin formalaşması yeni dünya düzəminə təsir edən "Qərb" və ya "Şərq" modelinə deyil, qloballaşaniqtisadiyyatın yaratdığı müasir problemlərdən nəticə çıxarmaqla özünün milli tarixi ənənələrinin və bazar inkişaf yolunun spesifikliyinin, həmçinin siyasi əlaqələr və ölkəəhalisinin psixoloji özəllikləri kimi digər amillərin nəzərə alınmasını və hərtərəflitəhlil olunmasını tələb edir. Təbii ki, metodoloji baxımdan fərdiliyin mütləqləşdirilməsinə əsaslanan liberal bazar modelinin Azərbaycanın milli iqtisadi inkişaf modeli kimi seçilməsi və tətbiqi qəbuledilməz hesab olunur.

Obyektiv amillərdən və eyni zamanda, milli iqtisadiyyatın müasir dünyanın mütərəqqi inkişaf meyllərinə inteqrasiyasının zəruriliyindən çıxış edərək, Azərbaycan Respublikasının milli iqtisadiyyatın inkişaf modelinin vacib hesab edilən vektorlarını aşağıdakı kimi qruplaşdırmaq mümkündür:

- bazar iqtisadiyyatının bütün zahiri əlamətlərinin mövcud olduğu Azərbaycanın dünyada mühüm tarixi rolu, onun suverenliyinin saxlanılması və dəstəklənməsinin zəruriliyi;
- geniş milli təkrar istehsal üçün elmi-texniki, təbii-resurs və formalaşmış sənaye potensialının mövcudluğu, eləcə də iş qüvvəsinin keyfiyyət səviyyəsinin nisbətən yüksək olması;
- bazar iqtisadiyyatı üçün müvafiq qanunvericilik bazasının və bazar institutlarının formalaşdırılması;
- "standart" bazar iqtisadiyyatları ilə müqayisədə iqtisadi sferada aktiv tənzimləyici funksiyanı yerinə yetirən dövlətin müəssisələrin təsərrüfat fəaliyyətinə müdaxiləsinin məhdudlaşdırılması;
- institusional islahatların həyata keçirilməsi məqsədi ilə dövlətin özəl sektora əsassız müdaxiləsinin aradan qaldırılması;
- mülkiyyət formalarının çoxnövlülüyünün təmin edilməsi və mühüm əhəmiyyətə malik təsərrüfat formalarının, həmçinin istehsal strukturlarının (xüsusilə də, təbii inhisar sahələrinin) rəngarəngliyi;
- iqtisadiyyatın yüksək dərəcədə sosial yönümlülüyü;
- bazar münasibətləri sisteminin yaratdığı əhval-ruhiyyənin cəmiyyət həyatının bütün sahələrinə sirayət etməsi;
- keçid iqtisadiyyatı ilə bağlı son dərəcədə ağrılı prosesləri arxada qoyan ölkənin sosial-iqtisadi modernləşmə baxımından keyfiyyətcə yeni mərhələyə qədəm qoyması;
- innovasiyalı, diversifikasiya olunmuş iqtisadiyyat meyllərinin güclənməsi;

- milli iqtisadi təhlükəsizliyi təmin edən və qloballaşma proseslərinin verdiyi imkanlardan istifadə etməklə milli maraqların reallaşmasına xidmət göstərən əlverişli iqtisadi mühitin - azad (açıq) bazar iqtisadiyyatının formalaşması və s.

3. *Mülkiyyət pluralizmi və subyektlərin iqtisadi müstəqilliyi.* Bəşər tarixi boyu müxtəlif mahiyyət spesifikliyi ilə hər bir yeni cəmiyyət üçün əsas, bünövrə olan, onların təbiətini ifadə edən spesifik mülkiyyət formalarıdır. Demokratikləşdirmənin məzmununu ifadə edən bazar iqtisadiyyatının təbiətinə tam uyğun gələn müxtəlif mülkiyyət formalarının təşəkkülü sabiq sosialist mülkiyyət formalarının islahatlar yolu ilə transformasiya edilərək yeni keyfiyyət halına düşməsi və bərqərar olması prosesi obyektiv qanunauyğunluğun nəticəsi kimi qiymətləndirilir.

İnkişaf etmiş qərb və şərq ölkələrinin tarixi təcrübəsi həyati gerçəklikdə təsdiq etmişdir ki, “kapital-məhsul-gəlir” tsiklinə güclü təsir göstərən çoxpilləli mülkiyyət formaları iqtisadiyyatda müasir, normal, sivil əmtəə münasibətləri üçün geniş meydan açır. Yalnız belə əmtəə - pul münasibətləri sivil bazar iqtisadiyyatı üçün xasdır, onun mahiyyətini təşkil edir. Təbiət etibarı ilə mənəvi başlanğıc hesab edilən, maddi nemətlərin istehlakı ilə yanaşı, nəsildə, ailədə mənəvi varisliyi təmin edən mülkiyyət, mülkiyyət münasibətlərinin inkişaf meyli bazar münasibətləri sisteminin digər ünsürlərinin formalaşması və fəaliyyətinə həlledici təsir göstərir.

Milli iqtisadiyyatın formalaşması hər şeydən əvvəl, cəmiyyətdə ümumi mülkiyyətin quruluşunda xüsusi mülkiyyətin hökmran mövqeyinin təmin edilməsi ilə bağlıdır. Əmlak, bir şey üzərində xüsusi mülkiyyət formasının mövcudluğu insan azadlığının zəruri şərti və bunun reallaşdırılmasının əsası, onun təbii, daimi və perspektivli olmasını təsdiq edir. A. Smit haqlı olaraq qeyd edirdi ki, “əgər insan bir mülkiyyət obyektinin sahibi deyilsə, onun heç bir mənafeyi ola bilməz” (13).

ABŞ-n keçmiş prezidenti T.Ruzvelt 1910-cu ildə yazıb göstərirdi ki, hər bir insanın şəxsi mülkiyyəti kollektiv hüquqa tabe olub, ictimai tələbatın tələb etdiyi dərəcədə tənzimlənir. Bu o deməkdir ki, mülkiyyət məzmunca nəinki hüquqi münasibətləri, eyni zamanda mülkiyyətçinin vəzifə və öhdəliklərini ifadə edir. Mülkiyyət sahibi təbii qüvvələrə qalib gələrək, onların üzərində öz hökmranlığını bərqərar etməklə onun hüquqi məsuliyyəti ortaya çıxır. Deməli, mülkiyyət münasibətləri məhz mülkiyyətçinin - insanın təbii qüvvələrlə mübarizəsi zamanı inkişaf edir.

Bazar iqtisadiyyatının əsası kimi özəl mülkiyyətin rolu iqtisadi vahidlərin və o cümlədən təsərrüfat subyektlərinin qərar və davranış müstəqilliyinə malik olmalarında təcəssüm edir.

Xüsusi mülkiyyətin doğurduğu rəqabət - bazar mühiti belə bir real gerçəkliyi qarşıya qoyur ki, bazar daşıyıcılarının istehsal - təsərrüfat fəaliyyəti üçün daha çox müstəqilliyin olması zəruridir və onlar bu fəaliyyəti həyata keçirən zaman həssas, dəqiq və sərbəst qərar qəbul etmək səlahiyyətlərinə malik olmalıdırlar. Bazar iqtisadiyyatı daha çox fayda, mənfəətə nail olmağa səy göstərən subyektlərin bir növ “avtonomluğunu” təmin edir, onlarda məsuliyyətə və sahibkarlığa meyl etmək kimi demokratik dəyərlərin inkişafını gücləndirir. İqtisadi azadlıq fərdiçiliyin bir qədər məhdudlaşdırılması mümkünlüyünü doğurmaqla məqsədə çatmağın daha optimal, məhsuldar istiqaməti kimi əməkdaşlığı və fəaliyyət birliyini diqtə edir.

Xüsusi mülkiyyət və iqtisadi azadlıq bir-birini şərtləndirir və biri digərini tamamlayır. Bu faktın obyektiv və subyektiv tərəflərini araşdırmadan onu nəzərə almalıyıq ki, iqtisadi subyektlər nə qədər sərbəst formada fəaliyyət göstərərlərsə, onlar sivil və mükəmməl bazar münasibətlərini inkişaf etdirilməsi üçün bir o qədər imkanlar qazanmış olurlar.

Azərbaycan Respublikasında iqtisadi fəaliyyət növləri üzrə mülkiyyət növlərinin sayı cədvəl 1-də verilmişdir.

**Cədvəl 1.**

**2021-2023-cü illər üzrə Azərbaycan Respublikasında iqtisadi fəaliyyət növləri üzrə mülkiyyət növlərinin sayı**

| İqtisadi fəaliyyət növləri üzrə mülkiyyətçilər | 2021 | 2022 | 2023 |
|---|---|---|---|

| **İqtisadi fəaliyyət növləri üzrə cəmi** | **355.906** | **377,842** | **389,133** |
|---|---|---|---|
| **1. Dövlət mülkiyyəti, cəmi:**<br>o cümlədən ayrı-ayrı sahələrdə xüsusi çəkisi, %-lə<br>• ticarət və nəqliyyat vasitələrinin təmiri<br>• sənaye sahəsi<br>• tikinti sahəsi<br>• digər sahələr | 1.808<br><br>7.3<br>26.4<br>7.3<br>17.6 | 1.833<br><br>6.9<br>25.8<br>10.2<br>17.7 | 1.796<br><br>7.0<br>26.4<br>9.2<br>17.2 |
| **2. Xüsusi mülkiyyət, cəmi:**<br>o cümlədən ayrı-ayrı sahələrdə xüsusi çəkisi, %-lə<br>• ticarət və nəqliyyat vasitələrinin təmiri<br>• sənaye sahəsi<br>• tikinti sahəsi<br>• digər sahələr<br>• | **350.443**<br><br>33.7<br>5.3<br>4.0<br>22.0 | **371.526**<br><br>33.3<br>5.5<br>3.9<br>22.3 | **374.526**<br><br>32.3<br>5.1<br>4.1<br>23.2 |
| **3. Xarici mülkiyyət** | **2.822** | **3.503** | **4.050** |

***Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif hesablamaları***

Cədvəldən göründüyü kimi 2022-ci ildə cəmi mülkiyyət növləri icərisində 4,8%- təşkil edən dövlət mülkiyyətçilərinin sayı 2023-cü ildə 0.2% bənd azalaraq 4,6% təşkil etmiş, 95% xüsusi çəkiyə malik olan xüsusi mülkiyyətçilərin sayı isə 0.4% bənd artaraq müvafiq olaraq 95.4% olmuşdur. Hesabat dövründə ən çox xüsusi mülkiyyətçilər ticarət və nəqliyyat vasitələrinin təmiri sahələrində, dövlət mülkiyyətçiləri isə 26.4% payla sənaye sektorunda cəmləşmişdir. Sənaye sahəsində dövlət mülkiyyətçilərinin sayı xüsusi mülkiyyətçilərdən 21,3% bənd çoxdur. Bütövlükdə aparılan təhlil onu göstərir ki, mütərəqqi meyl kimi xüsusi mülkiyyət sahiblərinin sayı illər üzrə artmaqda davam edir.
4. *Sərbəst qiymətqoyma imkanları*. Milli iqtisadiyyatın formalaşması, bazar mexanizminin optimal işləməsində bir iqtisadi alət kimi qiymət kateqoriyası mühüm əhəmiyyət kəsb edir. Qiymətin yaranması əsaslarının metodologiyasından və məhsulun qiymətinin onun dəyərindən kənarlaşması zəruriliyindən asılı olmayaraq ictimai zəruri məsrəflərin məcmusunu özündə ifadə edən qiymət cəmiyyətin mühüm iqtisadi vasitəsi olub və olmaqda davam edir. Təkzibedilməz həqiqət ondan ibarətdir ki, cəmiyyətin bütün iqtisadi, sosial, eləcə də bazar problemləri məhz ümumi, vahid, bütöv bir qanunauyğun mexanizmə malik qiymət müstəvisində çarpazlaşır. Bu da bazar münasibətləri sisteminin tələbləri baxımından məhsul və xidmətlərə tələb və təklif (həcm və səviyyəsindən asılı olaraq) nisbətləri əsasında cəmiyyətin və iqtisadiyyatın maraqları naminə sərbəst qiymətqoyma imkanları yaradır. Qiymətlərin sərbəstləşdirilməsi ancaq və ancaq tənzimlənən bazara xas olan tədbirdir. Sərbəst qiymətlərsiz bazar mümkün olmadığı kimi, bazar və bazar strukturları da sərbəst qiymətsiz mövcud ola bilməz.
*5. Azad rəqabət və rəqabət üstünlüklərinin təmin edilməsi*. Azad rəqabət milli iqtisadi sistemin daxili immanent xassəsi kimi onun formalaşması prosesində fəaliyyətə başlayır və getdikcə geniş təsir dairəsinə malik olur. A.Smitdən başlayaraq bazar iqtisadi sisteminə iqtisadiyyatın "təbii sistemi" kimi yanaşan bütün iqtisadi nəzəriyyə məktəbləri özəl mülkiyyətin və rəqabətin zəruriliyini əsas prinsiplər səviyyəsinə qaldırmış və bu məktəblərin, xüsusi ilə standart neoklassik nəzəriyyələrin məntiqinə görə bazar iqtisadiyyatın səmərəli işləməsi rəqabət və özəl mülkiyyətin vəhdət təşkil etdiyi halda mümkün

olur və bazar iqtisadiyyatının prinsipləri baxımından rəqabət və özəl mülkiyyət "Siam əkizləridir" (13).
Rəqabətin faydası və ya pozitiv nəticələri, adətən iqtisadi resursların bölüşdürülməsi və istifadəsi, innovasiya (texnoloji yeniləşdirmələr), istehlakçı rifahının təmin edilməsi və bir sıra hallarda iqtisadiyyatın strukturunun təkmiləşdirilməsi kimi müəyyən edilir.
Beləliklə, azad rəqabət nəticə etibarı ilə məhsul istehsalına çəkilən məsrəflərin azaldılmasına stimul yaradır, iqtisadi inkişafı təmin edir, istehsalçı və istehlakçıların differensasiyasına gətirib çıxarır.
*6. Səmərəli xarici iqtisadi əlaqələrin qurulması.* Dövlətsizləşdirmə, özəlləşdirmə, rəqabət və sahibkarlığın inkişaf etdirilməsi əsasında milli iqtisadiyyatın bazar transformasiyasıistər kəmiyyət və keyfiyyət, istərsə də obyektiv və subyektiv baxımından beynəlxalq iqtisadi münasibətləri əsaslı surətdə təkmilləşdirməyə iqtisadi əsaslar yaratdı.
Bu və ya digər ölkənin iqtisadiyyatının xarici ölkələr üçün açıqlıq dərəcəsi onun iqtisadi demokratikliyini xarakterizə edən mühüm göstəricidir. Hal-hazırda qlobalaşma şəraitində dünyada heç bir dövlət dünya iqtisadiyyatına inteqrasiya olunmadan tələb olunan səviyyədə inkişaf edə bilməz. Mühüm ekzogen faktor hesab edilən xarici-iqtisadi əlaqələr milli iqtisadiyyatın sabit inkişafına, onun strukturunun formalaşmasına, səmərəli fəaliyyətinə əsaslı təsir göstərir. Bu baxımdam Azərbaycan Respublikasının dünya iqtisadiyyatına inteqrasiyası təkcə ərazi və resurs imkanları kimi mövcud imkanları başa düşməkdə deyil, respublikamızda açıq iqtisadiyyatın alternativinin olmaması ilə diqtə olunur.
Azərbaycan sütrətli inkişaf tipini və buna görə də "satıcı" inkişaf modelinin seçmək məcburiyyəti ilə qarşılaşan bir ölkə kimi dünyanın iqtisadi cəhətdən bütünləşməsi proseslərinin doğurduğu üstünlüklərdən faydalanmaq və bundan doğan tələbləri qəbul və həll etmək qabiliyyəti formalaşdırmaq keyfiyyətinə malik olmalıdır. Bunun üçün isə tələb olunan əsas şərt məhz xarici ticarətin sənayeləşmə dərəcəsinin kəskin artırılması hesab olunur.
Çağdaş dünyada qloballaşmanın təsirlərinə bu və ya digər dərəcədə məruz qalan ölkələr, xüsusi ilə Azərbaycan Respublikası üçün başlıca problem daxili bazarı qorumaqla xarici ticarərin liberallaşdırılmasına nail olmaqdan ibarətdir.
Hal-hazırda xarici ticarət iştirakçılarının sayı 68-70 nəfərə çatan respublikamızın 180 -dən çox ölkə ilə xarici ticarət əlaqələri qura bilmişdir.
Azərbaycan Respublikasında xarici ticarətin son illər üzrə təhlili göstərir ki, idxal və ixracın strukturunda dəyişikliklər baş vermişdir. Dövlət Gömrük Komitəsinin statistik məlumatlarına əsasən 2024-cü ildə xarici ticarət dövriyyəsi 47.6 milyard dollar təşkil etmişdir ki, bununda 26.5 milyard dolları (55,8%) ixracın, təxminən 21.1 milyard dolları (44,3%) isə idxalın payına düşmüş və ixrac idxalı 1,3 dəfə üstələməklə 5. 496 milyard dollar məbləğində müsbət saldo yaranmışdır *(cədvəl 2).*

**Cədvəl 2.**

**Azərbaycan Respublikasında 2005- 2024-cü illər üzrə xarici ticarət dövriyyəsinin dinamikası**

*(milyon ABŞ dolları)*

| | 2005 | 2010 | 2020 | 2021 | 2022 | 2023 | 2024 |
|---|---|---|---|---|---|---|---|
| **1.Xarici ticarət dövriyyəsi** | **8558.4** | **27,960.8** | **24,464.6** | **33,911.2** | **52,686.5** | **51,183.9** | **47,612.1** |
| İdxal | 4211.2 | 6.600.6 | 10,732.0 | 11,703.2 | 14,539.8 | 17,285.3 | 21,058.0 |
| Xüsusi çəkisi, %-lə | 49.2 | 23.6 | 43.9 | 34.6 | 27.6 | 33.8 | 44.3 |
| İxrac | 4347.2 | 21360.2 | 13,732.6 | 22,208.0 | 38,146.7 | 33,898.6 | 26,554.1 |
| Xüsusi çəkisi, %-lə | 50.8 | 76.4 | 56.1 | 65.4 | 72.4 | 66.2 | 55.7 |
| **2. Saldo (+; -)** | **136.0** | **14,759.66** | **3,000.6** | **10,504.8** | **23,606.9** | **16,613.3** | **5,496.1** |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| **3.Əvvəlki ilə nisbətən faktiki qiymətlərlə ticarət dövriyyəsi,** ***%-lə*** | 120 | 120.0 | 72.7 | 87.2 | 103.3 | 91.6 | 92.6 |
| İdxal | 119.8 | 105.0 | 64.0 | 90.0 | 101.7 | 101.9 | 103.1 |
| İxrac | 120.2 | 125.3 | 78.8 | 85.0 | 104.2 | 87.7 | 87.2 |

***Mənbə: DGK məlumatları əsasında müəllif hesablamaları***

Cədvəl məlumatlarından göründüyü kimi 2024-cü ildə xarici ticarət dövriyyəsinin həcmində 2023-cü ilə nisbətən 3.571 milyard dollar azalma müşahidə edilmişdir.

İstər Avropa ölkələrinin 63.3%-lə üstün olduğu ixrac əməliyyatlarında, istərəsə də MDB və Avropa İttifaqına daxil olan ölkələrlə müqayisədə yerdə qalan dünya ölkələrinin yüksək paya malik olduğu idxal əməliyyatlarında özəl sektor müvafiq olaraq 51.57% və 60.60% təşkil etmişdir.

Xarici ticarət dövriyyəsində ən çox paya İtaliya (30,6 %), Türkiyə (14,9%), Rusiya(8,5%), Çin (6,1), Almaniya (3,6%), hər biri 2,8 faiz olmaqla, İsrail və Hindistan (2,7)% kimi ölkələr sahib olmuşdur.

Beləliklə, son illər ölkəmizdə dövlət səviyyəsində həyata keçirilən bir sıra zəruri tədbirlər, strateji məhsulların idxal və ixracında bütün fiziki və hüquqi şəxslərin bərabər hüquqlarının gerçəkləşdirilməsi və inhisarçılığın qarşısının alınması istiqamətində görülən işlər, daxili bazarın marketinqinin düzgün müəyyənləşdirilməsi, gömrük əlaqələrinin sadələşdirilməsi, xarici ticarətin liberallaşdırılması kimi məsələlər, heç şübhəsiz, xarici iqtisadi əlaqələrin həcminin və coğrafiyasının bir qədər də genişlənməsinə səbəb olub.

Milli iqtisadiyyat və milli bazarın formalaşmasına ixrac potensialının artırılması iləyanaşı, idxal baxımından strukturun təkmilləşdirilməsi mühüm əhəmiyyət kəsb edir.

İxracın diversifikasiyası və qeyri-neft sektorunun inkişafı davamlı iqtisadi artım üçün mühüm amildir. Son 20 ildə qeyri-neft ixracının payı ardıcıl artaraq ümumi ixracda mühüm rol oynamağa başlamışdır *(qrafik 1.)*




**Qrafik 1. 2005-2024- cü illər üzrə qeyri-neft məhsullarının ixracda xüsusi çəkisi**

Qrafikdən göründüyü kimi kənd təsərrüfatı və qeyri-neft sənayesi məhsullarının ixracına dövlət dəstəyinin gücləndiyi 2005-2014-cü illərdə qeyri-neft məhsullarının ixacında 9% artım müşahidə edildiyi halda, 2017-2024-cü illər ərzində sənaye parklarının fəaliyyəti və dövlətin ixrac təşviqləri nəticəsində bu sektorun payı 32%-ə çatmışdır.

Qeyri-neft ixracının yüksəlməsi bu sahənin, bütövlükdə, keyfiyyət baxımından strukturunun tənzimlənməsi ilə bağlıdır. Bunun nəticəsidir ki, Azərbaycan əvvəlki illərdən fərqli olaraq yalnız xammal məhsulları deyil, eyni zamanda, emaledici məhsulları da dünya bazarınaçıxarır. Bu da təbii ki, qeyri-neft ixracatının dayanıqlığı baxımından mühüm əhəmiyyət kəsb edir.

7. *Ölkənin resurs potensialı.* Resurs potensialı bir-biri ilə qarşılıqlı əlaqədə olan maddi nemətlər, energetika, informasiya vasitələrinin, habelə iqtisadi nemətlərin və xidmətlərin istehsalı prosesində

onlardan istifadə edilməsini nəzərdə tutur. Cəmiyyətin resurs potensialı sosial-iqtisadi inkişaf sahasində qarşıya qoyulan vəzifələrin reallaşmasına obyektiv əsaslar yaradır. Yəni, ölkənin sosial-iqtisadi inkişafi onun resurs potensialından bilavasitə asılıdır. Resurs potensialı son istehlakın təmin olunması və maddi istehsal sahələrinin məhsul və xidmət istehsal etmək qabiliyyətinə əhəmiyyətli dərəcədə təsir göstərir. Başqa sözlə, iqtisadiyyatın və cəmiyyətin sonsuz tələbatının daha yüksək və ya maksimal dərəcədə ödənilməsini təmin edən resurs potensialından səmərəli istifadə təkrar istehsal prosesi üzrə müəyyən strukturun təşkilinə əsaslar yaradır. Ona görə qarşıya qoyulan başlıca məqsəd ölkənin malik olduğu resurs potensialı ilə onun iqtisadi inkişafı arasında ümumi tarazlığın yaradılmasına nail olmaqdan ibarətdir.

Kəmiyyət və keyfiyyətinə görə eyni olan resurslar onlardan istifadə darərəcəsindən asılı olaraq müxtəlif potensiala malik ola bilər. Resurs potensialı özündə müxtəlif resurs növləri ilə bərabər, bu resurslardan istifadə dərəcəsi, effekt yaratmaq qabiliyyətlərini ehtiva edir. Resurs potensialı təhlil olunduqda və onun haqqında gələcək dövr üçün proqnoz hazırlandıqda onların hər birinin ayrı-ayrılıqda nəzərdən keçirilməsi məqsədəuyğundur. Aydındır ki, resurs potensialının tərkib hissələri arasında mütənasibliyin müəyyən edilməsi və optimallaşdırılması bir çox sosial-iqtisadi problemlərin həllinə imkan verir. Resurs potensialı, onun strukturu və tərkibi arasında optimal nisbət iqtsadi fəaliyyətə həlledici təsir göstərir.

Azərbaycan çox qədim zamanlardan etibarən və hal-hazırda da özünün zəngin təbii sərvətlərilə dünya dövlətlərinin daim maraq dairəsində olmuşdur. Bu bir tərəfdən Azərbaycan Respublikasının əlverişli coğrafi mövqedə yerləşməsi, digər tərəfdən isə ölkənin zəngin təbii şəraitə və yeraltı, yerüstü təbii ehtiyatlara malik olması ilə əlaqədardır. Məhz təbii sərvətlər, o cümlədən mineral-xammal resursları ölkəmizin iqtisadi potensialının inkişafı və əhalinin yaşayış səviyyəsinin yüksəldilməsini şərtləndirən mühüm amil kimi çıxış edir.

Filiz şəklində çıxan faydalı qazıntılar (dəmir, alüminium, xromit, qızıl, gümüş, mis, qurğuşun, sink kobalt, molibden filizləri və s.) respublikanın əsasən dağlıq hissələrində müxtəlif tip yataqlar əmələ gətirirlər. Dəmir filizləri ilə zəngin Daşkəsən, cənubi Daşkəsən və “Dəmir” yataqları sənaye əhəmiyyəti kəsb edir. Daşkəsən dəmir filizi qrupu yataqlarının sənaye ehtiyatı 250 mln. tondur. Qafqaz regionunda Daşkəsən dəmir filizi yatağı ehtiyatlarına görə dünyada Çindən sonra ikinci yeri tutmuşdur.

Avropada ən nəhəng yataq hesab edilən və dünyanın ən iri yataqları sırasına daxil olan Filizçay kolçedan-polimetal yatağının 95 mlyn. ton miqdarında filiz ehtiyatına malik olduğu aşkarlanmışdır və bu yatağın rentabelliyi 60 ilə qədər proqnozlaşdırılır.

Qeyri-filiz mənşəli faydalı qazıntılar Azərbaycanın mineral xammal ehtiyatlarının ümumi balansında mühüm rol oynayır. XXI əsrin əvvəllərinə dövlət balansında onların ümumi sayı 303 olmuşdur. Tikinti sənayesinin mineral-xammal bazasını təşkil edən 300-dən artıq müxtəlif növ qeyri-filiz və tikinti materialı yataqları kəşf edilmişdir. Bu qrupa daşduz, gips, anhidrit, gəc, bentonit gilləri, tikinti materialları, pirit, barit, yarımqiymətli və rəngli daşlar, dolomit, Islandiya şpatı və s. daxildir. Daşduz yataqları Naxçıvan MR-da (Nehrəm, Düzdağ, Pusyan) yerləşir. Yataqlar Miosenin qumdaşı, gil, əhəngdaşı, mergel çöküntülərindədir. Gips, anhidrit yataqları Goranboy rayonunu Yuxarı Ağcakənd və Mənəş kəndləri sahəsində Təbaşir çöküntüləri içərisində hemogen yolla əmələ gəlmiş və ayrı-ayrı ştoklardan ibarət olaraq ümumi ehtiyatları 65-70 mln. ton təşkil edir.

*8. Dövlət idarəetmə orqanlarının təsərrüfat subyektlərinin fəaliyyətinə total müdaxiləsinin yolverilməzliyi*. Ümummilli mənafelərin əsas təmsilçisi kimi çıxış edən dövlət bütövlükdə cəmiyyətin, eləcə də ayrı - ayrı vətəndaşların maraqlarını qorumalı (qoruyur), lokal səviyyəli mənafe tarazlığının formalaşması istiqamətində təsərrüfat subyektlərinin fəaliyyətinə total müdaxilə deyil, iqtisadi prosesləri tənzimləməlidir. Milli iqtisadiyyatın formalaşması və inkişaf etdirilməsində, eləcə də dünya təsərrüfat sistemi ilə əlaqələrin genişlənməsi baxımından istehsal və mübadilə sferasında mövcud iqtisadi münasibətlərin dövlət tərəfindən iqtisadi və hüquqi metodlarla tənzimlənməsi başlıca olaraq aşağıdakı üç mühüm obyektiv zəruriyyətlə bağlıdır:

- mülkiyyət formasından və tabeçilik əlamətindən asılı olmayaraq bütün bazar subyektlərinin (istehsalçı, məhsulgöndərən, istehlakçı, vasitəçi və s.) əsas məqsədi yaranan ehtiyac və tələbatları tam və dolğun ödəmək, keyfiyyətli xidmətin göstərilməsini təmin etməkdən ibarət olduğundan onlar üçün əlverişli iqtisadi mühiti formalaşdırmaq;
- bazar subyektləri arasında, həmçinin də bu subyektlərlə özü arasında yaranan iqtisadi münasibətlərdə ümumi maraqları qorunmasını təmin etmək;
- iqtisadiyyatın institusional strukturundan tutmuş, onun sahəvi xüsusiyyətləri də nəzərə alınmaqla ayrı-ayrı sektorlarda təsərrüfatın idarə edilməsinin spesifik cəhətlərini təyin etmək.

**Nəticə**: Milli iqtisadiyyatının formalaşması və inkişafını müəyyən edən amil və şərtlərin nəzəri baxımdan tədqiq edilməsi mühüm əhəmiyyət kəsb edir. Odur ki, dünya ölkələrinin iqtisadi inkişaf modellərinin spesifik xüsusiyyətləri və tətbiq mexanizmləri kompleks nəzərdən keçirilməli, ölkəmizin milli tarixi ənənələri və iqtisadi inkişaf qanunauyğunluqları nəzərə alınmaqla sivil iqtisadi inkişaf modelinin qurulması vacibdir. Aydındır ki, milli iqtisadiyyatın bu əsaslar üzərində formalaşması real şəraiti obyektiv qiymətləndirməklə dayanıqlı iqtisadi inkişafı təmin edən mexanizmlərinin işlənib hazırlanması və tətbiqi üçün zəmin yaradır və strateji xarakterli qərarların qəbul edilməsinə köməklik göstərir.

Qloballaşan dünya iqtisadiyyatına inteqrasiya proseslərinin aktiv iştirakçısına çevrilmək üçün yaxın və uzaq perspektiv dövrdə milli iqtisadiyyatın diversifikasiyalaşdırılması təmin olunmalıdır. Bunun üçün, ilk növbədə milli iqtisadiyyatın hasilat sənayesindən asılılıq dərəcəsi minimuma endirilməli, qlobal iqtisadi çağırışlara adekvat olaraq qeyri-neftsektoruna mənsub sahələrin inkişafı sürətləndirilməli və rəqabətqabiliyyətliliyi artırılmalıdır. Daxili və xarici bazarda rəqabətə tab gətirən məhsulların istehsalı və onların ixrac potensialının artırılması ilə bağlı problemlər həll olunmalı, idxaldan asılılıq aradan qaldırılmalıdır.

**İstifadə olunan ədəbiyyat siyahısı**

1. Azərbaycan 2030: Sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər. // AR Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmişdir.
2. Birləşmiş Millətlər Təşkilatı. Dünyamızın transformasiyası: 2030-cuillədək Dayanıqlı İnkişaf üzrə Gündəlik // -Bakı:- 2015. – 50 s.
3. Blanşard, Olivier. Makroiqtisadiyyat, ingilis dilindən tərcümə / O.Blanşard. Pearson, - 2018. - 491s.
4. İqtisadi nəzəriyyə. Dərslik. T.Vəliyev, Ə.Babayev və M.Meybullayevin ümumi redaktəsi ilə.Bakı , 1999-cu il.
5. Əliyev, Ş. Azərbaycan iqtisadiyyatı / Ş.Əliyev.-Sumqayıt: SDU-nun Redaksiya və nəşr işləri şöbəsi, -2018. -376 s.
6. Keys, Karl E. Mikroiqtisadiyyatın əsasları, ingilis dilindən tərcümə / Karl E. Keys, Ray C.Feyr, Şaron. M.Oster - Nyu-York: Pearson, - 2018. – 478 s.
7. Səmədzadə, Z. Azərbaycan iqtisadiyyatı 100 ildə: [5 cildə] / Z. Səmədzadə. – Bakı: İqdisadi Ensiklopediya Evi, Letterpress, - c.1. -2021. - 635s, - c.2, c.3. 2021.– 668s, - c. 4. 2021. - 591s, Kitab çapı.az. - c. 5. – 2022. - 591s.
8. Бузгалин, А.В. Глобальный капитал. В 2-х томах / А.В.Бузгалин, А.И.Колчанов. - Москва: - МГУ, - 2019. - 1552 с.
9. Бункина. А.Н. Национальная экономика. Москва. 2015, стр. 47
10. А.П.Градов. Националбная экономика.Санкт-Петербург, 1997 г. стр.144
11. Национальная экономика. / В.А.Шулганин –М. 2022.-346 с.
12. Пикетти, Т. Капитал в XXI веке / Т.Пикетти. - Москва: Ад Маргинием Пресс, - 2016. – 592 с.
13. Смит, А. Исследование о природе и причинах богатства народов / А.Смит. - Москва: ЭКСМО, - 2007. – 297 с.